Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına, Muhəmmədin Allahın Rəsulu olduğuna, namaz qılmağa, zəkat verməyə, (başçıya) eşidib itaət etməyə və hər bir müsəlmana nəsihət etməyə Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) beyət etdim

Cabir bin Abdullahdan (Allah ondan razı olsun) belə söylədiyi rəvayət edilir: Allahdan başqa ibadətə layiq haqq məbud olmadığına, Muhəmmədin Allahın Rəsulu olduğuna, namaz qılmağa, zəkat verməyə, (başçıya) eşidib itaət etməyə və hər bir müsəlmana nəsihət etməyə Allah Rəsuluna (Allahın salavatı və salamı onun üzərinə olsun) beyət etdim.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Sahabə Cərir bin Abdullah (Allah ondan razı olsun) xəbər verir ki, o, Peyğəmbərlə (Allahın salavatı və salamı onun üzərinə olsun) tövhid, gecə və gündüz beş vaxt vacib namazı şərtləri, rükunları, vacibləri və sünnətləri ilə qılmaq, varlılardan alınıb kasıblara və digər layiq olan kəslərə verilən, malda vacib olan zəkatı əda etmək, hakimlərə itaət etmək, hər bir müsəlmana nəsihət etmək üzərinə - bu isə söz və əməllə ona fayda verməyə həris olmaq, ona xeyir çatdırmaq, ondan zərəri dəf etməklə olur- əhd-peyman bağladı.

http://www.sunnah.global/hadeeth/az/show/3512